# Kəlağayı dünyası

***"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi "Kəlağayı əlvan qıyqacı" layihəsi çərçivəsində yeni kitab nəşr etdirib.***

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin xətti ilə çap olunan şeirləri layihə rəhbəri Güllü Eldar Tomarlı uzun illər ərzində toplayıb. Qız-gəlinlərin ismət, gözəllik və yaraşıq rəmzi sayılan kəlağayını vəsf edən şeirlər kitabında 76 müəllifdən nümunələr yer alıb. Birinci vitse-prezident Mehriban Əliyevanın milli baş örtüyü olan kəlağayıya diqqət və marağını əks etdirən məqalə və şəkillər də toplanaraq oxucuların ixtiyarına verilib.

Kitabın redaktoru Vüsal Sehranoğludur. Üz qabığındakı "Kəlağayı əlvan qıyqacı" rəsm əsəri Gülnarə Məmmədliyə, qədim "Heratı" kəlağayısı isə basqallı usta Abbasəli Talıbova məxsusdur.




***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti.- 2023.- 21 sentyabr.- S.10.